*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (3) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:20.03.2024*
*Kabul tarihi |Accepted:15.04.2024*
*Yayın tarihi |Published:25.06.2024*

**İkram Ağasiyev**

https://orcid.org/0000-0003-0801-6683
*Professor, doctor of historical sciences, Director of the "Soviet period history of Azerbaijan" department of the History Institute named after A. A. Bakikhanov of the Azerbaijan National Academy of Sciences, ikramagasiyev@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Ağasiyev, İ. (2024). Fevral İnqilabından Sonrakı Dövrdə Qafqaz Alman Əhalısının Muxtariyyət Uğrunda Mübarizəsi. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (3), 1521-1541.

# Fevral İnqilabından Sonrakı Dövrdə Qafqaz Alman Əhalısının Muxtariyyət Uğrunda Mübarizəsi

***Öz***

*Hər bir xalq öz tarixi, mədəniyyəti və adət-ənənələri ilə bənzərsizdir, təkrarolunmazdır. Rusiyada 250 il, Qafqazda 140 il yaşayan almanların keçdiyi tarixi yol həm bəşəriyyət üçün, həm də region xalqları üçün faciəli və ibrətamiz dərs oldu.Təqdim olunan məqalənin mövzusu istər Azərbaycan, istərsə də Dünya tarixi nöqteyi-nəzərindən əhəmiyyət kəsb edir.Belə ki, Qafqaz alman koloniyalarının tarixi ümumilikdə və almanların muxtariyyət uğrunda mübarizəsi problemi ayrıca həm Azərbaycan, həm də Qafqaz tarixinin bir hissəsidir və bu problemin tədqiq olunması Qafqaz regionunun, o cümlədən Azərbaycanın Fevral inqilabından sonrakı dövr tarixinin bütöv elmi – obyektiv mənzərəsinin yaranmasına xidmət edə bilər. Təəssüflər olsun ki, bu vaxta qədər Qafqaz alman əhalisinin muxtariyyət uğrunda mübarizəsinin tarixi istər Azərbaycan, istərsə də xarici ölkə tarixşünaslığında lazımi səviyyədə araşdırılmamış, nəticədə məsələ ilə bağlı bir sıra vacib nüanslar 1917-1918-ci illər çərçivəsində tədqiqat aparan tarixçilərin nəzərindən kənarda qalmışdır.Məqalədə ilk dəfə olaraq 1917-ci ilin fevralından 1918-ci ilin martınadək dövrdə Qafqaz alman əhalisinin öz milli mədəniyyəti, hüquqları uğrunda apardığı mübarizə geniş arxiv sənədləri əsasında işıqlandırılır, baxılan məsələyə dair yeni-yeni faktlar elmi dövriyyəyə daxil edilir ki, bu da məqalənin elmi yeniliyini təşkil edir.*

***Açar sözlər:*** *Fevral inqilabı, alman kolonistləri, Azərbaycan, Qafqaz, muxtariyyət*

Creative Commons Licence BY NC

# The Struggle For Autonomy of the Caucasus German Population in the Period After the February Revolution

***Abstract***

*Every nation is unique and unrepeatable with its history, culture and traditions. The historical path traveled by the Germans, who lived in Russia for 250 years and in the Caucasus for 140 years, was a tragic and practical life experience for both humanity and the peoples of the region. The article is devoted to the struggle for autonomy of the Caucasian German population. The topic of the presented article is important both from the point of view of Azerbaijan and World history. The history of the Caucasian German colonies and the problem of the Germans' struggle for autonomy is a part of the history of both Azerbaijan and the Caucasus. Researching this problem can serve to create a whole scientific-objective picture of the modern history of the Caucasus region and Azerbaijan. Unfortunately, the history of the Caucasian German population's struggle for autonomy has not been properly investigated in the historiography of Azerbaijan or foreign countries. A number of important facts related to this problem have been overlooked by historians. For the first time, the article examines the struggle of the Caucasian German population for their national culture and rights in the period from February 1917 to March 1918 on the basis of extensive archive documents. The author has included new facts about the issue in the scientific circulation, which constitutes the scientific innovation of the article.*

***Keywords:*** *February revolution, German colonists, Azerbaijan, Caucasus, autonomy.*

## Giriş

1917-ci ilin Fevral inqilabı Rusiyanın bütün xalqları kimi alman əhalisinin də siyasi fəallığını artırdı. Gündəlikdə duran ən vacib məsələlərdən biri təkcə Qafqazda deyil, ümumiyyətlə Rusiyada yaşayan bütün alman əhalisini eyni bir məqsəd ətrafında birləşdirmək, onlar arasında siyasi pərakəndəliyi aradan qaldırmaq və onları təsirə malik siyasi qüvvəyə çevirməkdən ibarət idi.

Çarizmin devrilməsindən sonra ölkədə demokratikləşməyə böyük ümid vardı. Alman əhalisi çar hakimiyyəti dövründə onlara qarşı qəbul edilən diskriminasiya xarakterli qanunların ləğv edilməsini səbirsizliklə gözləyirdilər. 11 mart 1917-ci il tarixdə Müvəqqəti hökumət «Avstriya, macar və alman mənşəli şəxslərə məxsus torpaq mülkiyyəti və torpaqdan istifadə qaydalarına aid qanunların yerinə yetirilməsinin dayandırılması» haqqında qərar qəbul etdi. Qərara görə 1915-1917-ci illər ərzində Rusiya almanlarına və ayrı-ayrı bölgələrdə yaşayan almanlara qarşı qəbul olunmuş 15 qanun aktı qüvvədən düşdü ki, bu da Qafqaz almanlarının ölkənin siyasi həyatında baş verən proseslərə fəal qoşulmasına imkan yaratdı (İstoriya rossiyskix nemtsev v dokumentax. T.1, 1993, s. 38-44). XX əsrin əvvəllərindən, əsasən də çar hakimiyyəti devrildikdən sonra keçmiş Rusiya imperiyası ərazisində öz həllini gözləyən ən vacib məsələlərdən biri milli məsələ idi. Rusiya

kimi çoxmillətli ölkə üçün bu taleyüklü məsələnin hansı formada həll edilməsi dövlətin gələcəyini təyin edirdi.

Rusiyada mövcud olan bütün siyasi partiyaların, ictimai təşkilatların proqramlarında bu vacib məsələnin həllinə dair müddəalar öz əksini tapmışdı. Qeyd edək ki, milli məsələnin həllinə dair müxtəlif baxışlar mövcud idi və əsas mübahisə obyekti milli məsələnin hansı formada həll edilməsi ətrafında aparılırdı. Rusiyanın bütün qeyri-rus xalqları kimi alman əhalisi də milli muxtariyyəti milli məsələnin və Rusiyanın gələcək siyasi quruluşunun təyin olunmasının bir variantı kimi görürdülər və əsas mübarizə milli muxtariyyətin forması ətrafında gedirdi: Qafqaz almanları milli-ərazi və yaxud milli-mədəni muxtariyyət formasından birini seçməli idilər. Aparılan tədqiqatlardan göründüyü kimi Qafqaz almanları daha çox milli-mədəni muxtariyyət uğrunda mübarizə aparmışlar (Vashkau, 1998, s. 38).

"Milli-mədəni muxtariyyət" anlayışı başqa cür "milli-personal" və yaxud "eksterritorial" muxtariyyət kimi də işlədilir və bu nəzəriyyə Rusiya imperiyasına Habsburqlar imperiyasından gəlmişdir. Milli-personal muxtariyyət nəzəriyyəsinin baniləri, Avstriya sosial-demokratları K. Renner və O.Bauer hesab edirdilər ki, milli birliklər əvəzinə, ərazi subyektinə milli hüquq daşıyıcısı statusunun verilməsi milli münaqişələrin yaranmasının əsas səbəbidir.K.Renner və O.Bauerin konsepsiyasının mahiyyəti ondan ibarət idi ki, milli hüququn mənbəyi və daşıyıcısı əksər milli münaqişələr zamanı mübarizə obyekti olan müəyyən ərazi deyil, insanların könüllü şəkildə yaratdığı milli birliklər olmalıdır (Bolshaya sovetskaya entsiklopediya. Glav. red. S.I.Vavilov, T.4. Vtoroye izdaniye, 1969 ; Bolshaya sovetskaya entsiklopediya, T.36. Vtoroye izdaniye, 1976). Hər hansı şəxsin belə milli-mədəni birliyə daxil olması könüllülük prinsipinə arxalandığı üçün ona "milli-personal" və yaxud bu cür muxtariyyətin heç bir ərazi çərçivəsinə sığmadığı üçün ona "eksterritorial" muxtariyyət deyilir. Bu muxtariyyət formasının funksiyaları daha çox mədəni sahəyə aid olduğundan onu tarixi ədəbiyyatda daha çox milli-mədəni muxtariyyət kimi də adlandırmışlar.

Rusiyada mövcud olan siyasi qüvvələrin böyük əksəriyyəti və əsasən də, alman əhalisi arasında daha çox populyar olan eserlər, kadetlər, trudoviklər, menşeviklər, milli ucqarlardakı bir çox milli-partiyalar milli-mədəni muxtariyyət modelinə dispers halda yaşayan etnosların və milli azlıqların problemlərinin həllinin optimal variantı kimi baxırdılar. Rusiyada Vətəndaş müharibəsi və inqilablar dövrünün siyasi təcrübəsində eksterritorial, milli-personal muxtariyyət milli azlıqların maraqlarını təmin edən zəruri forma kimi qəbul olundu. Çar hakimiyyəti devrildikdən sonra Qafqaz almanlarının özünüidarə sistemi yaratmaq uğrunda mübarizəsi belə bir tarixi konteksdə cərəyan edirdi. Qeyd etməliyik ki, 1917-ci ildə Qafqaz almanlarının siyasi fəaliyyəti daha çox Rusiyanın

mərkəzi şəhərlərində (Sankt Peterburq, Moskva) və almanların kompakt yaşadığı başqa regionlarda (Qara dənizin şimal sahili, Volqaboyu, Sibir) baş verən hadisələrlə sıx bağlı idi.

### 1.Rusiya ərazilərində almanlarının muxtariyyət hərəkatının başlanması: İlk regional ziddiyyətlər

Rusiya almanlarının milli-mədəni muxtariyyət hərəkatının başlanğıcı K. Lindemanın başçılıq etdiyi milli-liberal qrupun 12 mart 1917-ci il tarixdə Moskvada keçirdiyi yığıncaqda qoyuldu. Elə həmin ilin 18 mart tarixində Odessada kadet partiyasının mövqelərində dayanan Cənubi Rusiya almanlarının yığıncağı keçirildi (Fleischhauer, 1990, s. 162). Beləliklə, 1917-ci ilin yazında Rusiyada alman milli hərəkatının mərkəzinə çevrilmək uğrunda Moskva və Odessa arasında iddialıq mübarizəsi başladı.

20-22 aprel 1917-ci il tarixdə Moskvada Rusiyanın alman kolonistlərinin Nümayəndələr qurultayı oldu. Bu qurultayda Rusiyanın 15 quberniyasından 86 nümayəndə heyəti, o cümlədən Kuban, Terek vilayətləri, həmçinin Bakı, Yelizavetpol və Tiflis quberniyalarında yaşayan alman əhalisinin nümayəndələri də iştirak edirdilər. Cənubi Qafqaz alman nümayəndələrinə yelenendorflu Teodor Hummel başçılıq edirdi (Azerbaycan Cumhuriyyeti Devlet Tarih Arşivi (kısaca-ACDTA) fond 508, liste 1, dosya 361, v. 59).

Qurultayın gündəliyinə Rusiyanın alman əhalisini vahid Ümumrusiya təşkilatında birləşdirmək və öncə bu təşkilatın Nizamnaməsini tərtib etmək, almanları Müəssislər Məclisinə seçkilərdə fəal iştiraka hazırlamaq, alman hərəkatında mövcud olan və müxtəlif siyasi baxışlara malik partiyaları, təşkilatları birləşdirə biləcək vahid siyasi platformanın formalaşdırılması, mədəni və dini özünütəyinetmə, kilsənin islah edilməsi, çar hökumətinin alman torpaq mülkiyyətinə qarşı qəbul etdiyi qanunlarının ləğv edilməsi və sair vacib məsələlər cıxarılmışdı. Qurultayda bütün alman millətindən olan Rusiya vətəndaşlarının ümumi mədəni və mənəvi maraqlara söykənən Ümumrusiya təşkilatında birləşdirilməsi zərurəti vurğulandı və Rusiyada alman əhalisinin kompakt yaşadığı ərazilərdə özünüidarəetmə sisteminin yaradılması haqqında yekdilliklə qərar qəbul edildi. Koloniyalarda, qəzalarda vilayətlərdə komitələr yaradılmalı və onların hamısı iyerarxik şəkildə Petroqradda yerləşəcəyi planlaşdırılan Mərkəzi Komitəyə tabe olmalı idi. Mərkəzi Komitənin formalaşması yalnız yerlərdə yerli komitələrin yaranmasından və onların nümayəndələrinin Mərkəzi Komitəyə göndərilməsindən sonra mümkün olduğundan, Moskva qurultayında müvəqqəti Mərkəzi Komitə yaradıldı. Onun tərkibinə Dövlət Dumasının keçmiş deputatları İ. Q. Lüts, A. F. Meyendorf, P. P. Şreder, həmçinin professorlar K. E. Lindeman, Y. F. Propp A. A. Hübertus daxil edildilər (Fleischhauer, 2005, s. 533). Müəssislər Məclisinə seçkilərə hazırlıq taktikasına gəldikdə, qurultayda qərara alındı ki, Rusiya almanlarının müxtəlif siyasi partiyalara meylini, bu partiyaların

proqramlarını kənara qoyaraq, bütün Rusiya almanlarının maraqlarını ifadə edən və bütün kolonistlər üçün mütləq olan vahid siyasi platforma hazırlanmalıdır. Qurultayda müzakirə olunan ən vacib məsələlərdən biri də Rusiyanın gələcək siyasi quruluşu məsələsi idi. Ənənəvi olaraq həmişə monarxiyanı dəstəkləyən almanlar qurultayda konstitusiyalı monarxistlərə güclü müqavimət göstərərək Rusiyanın dövlət quruluşunun federativ respublika olmasına səs verdilər. Məlumdur ki, Birinci Dünya müharibəsi illərində minlərlə alman kolonisti öz xüsusi torpaq sahəsindən məhrum edilmişdi və bu səbəbdən sadə kolonist kütlələri qurultaydan torpaq məsələsinə dair ədalətli qərar gözləyirdi. Qurultayda, ümumiyyətlə xüsusi mülkiyyət prinsipləri mövcud olduğu şəraitdə torpaq üzərində xüsusi mülkiyyətin saxlanması prinsipi qəbul edildi (Fleischhauer, 2005, s. 533, 534).

Göründüyü kimi, Moskvada keçirilən Rusiya almanlarının və mennonitlərin I qurultayı alman əhalisini narahat edən bir çox siyasi, iqtisadi və mədəni məsələlərə öz münasibətini bildirdi, alman əhalisinin gələcək fəaliyyət istiqamətlərinə müəyyən aydınlıq gətirdi. Almanların aprel qurultayında qaldırdıqları məsələlər sırasında yerli özünüidarəetmə sisteminin yaradılması təxirəsalınmadan öz həllini gözləyən məsələ idi.

Qurultay başa çatdıqdan bir neçə gün sonra, 27 aprel 1917-ci il tarixdə Zaqafqaziya Xüsusi Komitəsi Zaqafqaziya hüdudlarında yerli hakimiyyət orqanlarının yenidən təşkili haqqında qərar qəbul etdi (ACDTA, fond 508, liste 1, dosya 398, v.15). Qərarda qeyd olunurdu ki, Zaqafqaziya diyarında yeni inzibati qaydaların bərqərar olunmasına qədər müvəqqəti olaraq hakimiyyət ümumi, açıq və gizli səsvermə yolu ilə seçilmiş icraiyyə komitələrinə həvalə edilir (ACDTA, fond 508, liste 1, dosya 398, v. 15, 16). Hər icraiyyə komitəsinin başında yerli əhali tərəfindən seçilmiş komissar dururdu.

Cənubi Qafqazda mövcud olan alman koloniyaları kənd icma statusuna malik olduqları üçün adı çəkilən qərara görə hər koloniyada seçkilər keçirilirdi və koloniyanın icraiyyə komitəsi və komissarı seçilirdi. İcraiyyə komitəsinin üzvlərinin sayı koloniyada yaşayan əhalinin sayına görə təyin edilirdi. Qaydalara görə hər 100 nəfər seçici icraiyyə komitəsinə 1 nəfər nümayəndə seçə bilərdi. Əgər koloniya əhalisinin sayı 100-dən az olarsa, onda həmin koloniya qonşu koloniyaya birləşərək icraiyyə komitəsinin yaradılmasında iştirak edə bilərdi. Qərarın imzalandığı dövrdə Gürcüstanda, istərsə də Azərbaycanda əhalisinin sayi 100-dən az olan koloniya qeydə alınmamışdı. İcraiyyə komitəsi seçildikdən sonra onun üzvləri öz sıralarından icraiyyə komitəsinin sədrini, onun müavinlərini və katibi seçirdilər (ACDTA, fond 508, liste 1, dosya 398, v.15).

Qayda-qanunun, əmin-amanlığın bərqərar edilməsi və möhkəmləndirilməsi, koloniyalarda kənd milisinin yaradılması, koloniya sakinlərindən və yaxud kənar şəxslərdən koloniya komissarını, vergi müfəttişini və sair vəzifəli şəxslərin seçilməsi, ərzaq, yol, məktəb işlərinin qaydaya salınması, vergi və müxtəlif ödəmələrin qanuni yığılmasının təmin edilməsi – koloniya icraiyyə

komitəsinin əsas vəzifələri bunlardan ibarət idi. Yerdə qalan bütün məsələlərin müzakirəsi üçün koloniya icmasının yığıncağı keçirilirdi və qeyd edək ki, yığıncaq komissar və yaxud onun köməkçisi tərəfindən çağrılırdı. Hər koloniyada komissara bir nəfər köməkçi seçilirdi. Koloniyalarda starşinalar, onların köməkçisi vəzifələri ləğv edildi, onların səlahiyyətləri və vəzifələri kənd komissarlarına həvalə edildi (ACDTA, fond 508, liste 1, dosya 398, v.15). Tezliklə Cənubi Qafqazın bütün alman koloniyalarında Müvəqqəti hökumətin təsdiq etdiyi komissarlar fəaliyyətə başladılar. Alman koloniyalarının ictimai-siyasi həyatının mühüm məsələlərini həll etmək üçün yeni orqanlar – alman milli komitələri yaradıldı.

**2.Qafqazda almanlarının muxtariyyət hərəkatının xüsusiyyətləri**

Qafqaz almanlarının siyasi fəaliyyətinə çaşqınlıq gətirən əsas amil Ümumrusiya alman muxtariyyət hərəkatında nəzərə çarpan siyasi dağınıqlıq idi. Almanların kütləvi məskunlaşdıqları əsas regionlarda – Volqaboyuda, Cənubi Ukraynada, Qərbi Sibirdə, Altayda alman milli hərəkatı müəyyən xüsusiyyətlərə məxsus idi və əsasən regionların coğrafi, demoqrafik, sosial-iqtisadi xüsusiyyətlərindən doğan bu müxtəliflik vahid Ümumrusiya alman muxtariyyət hərəkatının formalaşmasına əngəllər törədirdi. Məsələn, 25-27 aprel 1917-ci il tarixdə keçirilən və sol sentristlərin üstünlük təşkil etdiyi Saratov konqresində Volqaboyu almanlarının iqtisadi, siyasi, sosial maraqlarının ziddiyyətli xarakteri üzə çıxdı.Belə ki, Qafqaz almanlarından fərqli olaraq, Volqaboyu almanlarının əksəriyyəti muxtariyyət məsələsində daha çox solmeyilli partiyaların və sosial-demokratların mövqeyini müdafiə edir, Volqada almanların milli-mədəni deyil, milli-ərazi muxtariyyətinin əldə edilməsi süarını irəli sürürdülər (Fleischhauer, 2005, s. 542).

Rusiya almanlarının milli hərakatının siyasi mərkəzinə çevrilmək uğrunda mübarizə aparan şəhərlərdən biri də Odessa idi. 1917-ci ilin 14-17 may tarixdə Odessada Ümumrusiya almanlarının konqresi keçirildi və burada Rusiyanın bütün bölgələrindən, o cümlədən Qafqaz regionundan gəlmiş 2 min nümayəndə iştirak edirdi (19 may 1917, «Kaspiy», s.109.) Demək olar ki, Odessa konqresi Moskva qurultayında müzakirə olunan məsələləri yenidən Rusiya almanlarının müzakirəsinə çıxartdı və ancaq Moskva qurultayından fərqli qərarlar qəbul etdi. Məsələn, ölkənin gələcək siyasi quruluşu məsələsində konqres iştirakçıları Rusiyanın federativ respublikaya çevrilməsi variantına qarşı çıxaraq xalqların öz müqəddəratını təyinetmə hüququnu alqışlamaqla yanaşı, Rusiyanı parlamentli, demokratik, unitar respublika kimi görmək arzusunu ifadə etdilər. Odessa konqresi daha konkret addım ataraq Moskva qurultayında yalnız proyekt səviyyəsində müzakirəyə qoyulan "Alman və mennonitlərin Ümumrusiya ittifaqı"nın yarandığını elan etdi (Fleischhauer, 2005, s. 553). Rusiya almanlarının siyasi hərəkatına rəhbərlik uğrunda Odessa, Moskva, Petroqrad arasında gedən mübarizə fonunda Qafqaz almanlarının milli hərəkatında

müəyyən çaşqınlıq yaranmışdı. Əgər Cənubi Qafqaz almanları nisbətən monolit qüvvə kimi çıxış edirdilərsə, Şimali Qafqaz haqqında bunu demək olmazdı. Məsələn, Şimali Qafqazın Kuban, Terek vilayətlərində, həmçinin Stavropol quberniyasında yaşayan mennonitlər xüsusi mövqe nümayiş etdirirdilər. "Alman və mennonitlərin Ümumrusiya ittifaqı"nın yaradılmasına, protestant və katolik konfessiyasına aid almanlarla birləşməyə razılıq verən mennonitlər, bununla yanaşı öz "dini muxtariyyətinin qorunması" şərtini irəli sürdülər.1917-ci il 27 iyul tarixdə Georgiyevskdə (Stavropol quberniyası) Şimali Qafqaz mennonitlərinin yığıncağı keçirildi və burada "Ümumrusiya alman ittifaqı"na birləşmək haqqında qərar qəbul edildi. 1917-ci il 14-18 avqust tarixdə Orlov şəhərində Mennonitlərin Ümumi konqresi keçirildi və mennonitlərin "dini muxtariyyətinin saxlanması şərti ilə Rusiyada yaşayan bütün mennonitlərin "Alman və mennonitlərin Ümumrusiya ittifaqı"nda birləşməsi qərarı yekdilliklə qəbul edildi (Fleischhauer, 2005, s. 552-554).

Moskva və Odessada alman komitələrinin yaranması dövründə Tiflisdə də almanların müvəqqəti komitəsi yaradıldı. Bu müvəqqəti komitənin əsas vəzifəsi Cənubi Qafqaz quberniyalarında yaşayan alman əhalisinin nümayəndələr qurultayına hazırlıq işlərinin görülməsindən ibarət idi. Keçiriləcək qurultayda, həmçinin mərkəzi Tiflis olmaqla daimi komitənin yaradılması nəzərdə tutulmuşdu. 14 may 1917-ci il tarixdə Tiflisdə Cənubi Qafqazda yaşayan "Alman millətindən olan Rusiya vətəndaşları"nın qurultayı keçirildi. Qurultayın sədri Tiflis almanlarının lideri, professor E.Bernşteyn, katibi isə Q.Knayer seçildi. Qurultayda bütün alman koloniyalarının nümayəndələri çıxış etdilər və koloniyalardakı vəziyyət haqqında məlumat verdilər. Qurultay iştirakçıları "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya ittifaqı"nın yaradılmasının zəruri olduğunu vurğuladılar (ACDTA, fond 508, liste 1, dosya 388, v.1-2)."İttifaq"ın yaradılmasının ən ümdə məsələlərdən biri Birinci Dünya müharibəsi zamanı Sibirə və sair ucqar ərazilərə sürgün edilmiş alman əhalisinə yardım etmək idi (17 may 1917, «Kaspiy», s.107).

Qurultayda mərkəzi Tiflisdə olmaqla Zaqafqaziya diyar alman icraiyyə komitəsi seçildi və hər koloniyada yerli alman komitəsinin yaradılması qərara alındı. Bu komitələr qarşısında koloniyalar haqqında statistik məlumatın toplanması, koloniyalarda baş verən proseslər haqqında qurultaya hesabatın hazırlanması və sair vəzifələr qoyulmuşdu. Bütün bunlar qurultayda proqram kimi qəbul edildi. Yerli komitələrin fəaliyyəti koloniyaların öz hesabına həyata keçirilməli idi. Qurultayda, həmçinin koloniyaların mövcud sosial-iqtisadi vəziyyəti, koloniya sakinlərinin şəxsi həyatının və əmlakının cinayətkar dəstələrdən qorunması, yetim və kimsəsizlərə qəyyumluq şuralarının yaradılması, Polşa Çarlığı, Volın və sair qərbi quberniyalardan köçürülənlərin koloniyalarda yerləşdirilməsi və onlara yardım edilməsi, cəbhədə vuruşanların ailələrinin maddi vəziyyəti və sair məsələlər müzakirə edildi (ACDTA, fond 508, liste 1, dosya 388, v.1-2).Yeri gəlmişkən qeyd edək ki, koloniyalarda yaradılan komitələr Cənubi Qafqazda müstəqil dövlətlərin

yaranmasına qədər, yəni 1918-ci ilin mayına qədər fəaliyyət göstərmiş və alman koloniyalarının həyatında mühüm rol oynamışlar.

Alman milli komitələrini narahat edən ən mühüm məsələlərdən biri də Birinci Dünya müharibəsi illərində çarizmin almanlara qarşı apardığı diskriminasiya siyasəti nəticəsində kolonist təsərrüfatlarına dəyən ziyanı aradan qaldırmaq idi. Müharibənin davam etdiyi 1917-ci ilin birinci yarısında alman kolonistlərinin təsərrüfatlarında tənəzzül daha da dərinləşdi. Koloniyalarda əsas təsərrüfat sahəsi olan üzümçülük və şərabçılıqda müharibənin ağır nəticələri daha çox hiss olunurdu və bununla bağlı məsələləri müzakirə etmək üçün 1917-ci ilin mayında, Tiflisdə Qafqaz şərab-çılarının qurultayı keçirildi (13 may 1917, «Kaspiy», s. 104). İqtisadi böhranın qarşısını almaq üçün onlar mərkəzi Tiflis olmaqla Zaqafqaziya diyar üzümçülər və şərabçılar ittifaqı yaratdılar və onun sədri V. Rtsxiladze təyin olundu. Müvafiq ittifaqlar üzümçülüklə məşğul olan alman koloniyalarında da yaradıldı ki, onlardan ən nüfuzlusu 22 iyun 1917-ci il tarixdə Yelenendorf koloniyasında yaradılan Üzümçülər və Şərabçılar İttifaqı oldu. İttifaq seçilmiş şura tərəfindən idarə olunurdu ki, onun tərkibinə T. Hummel, X. Forer, Q. Reytenbax, İ. Breytmeyer, Q. Sayzer və sair kimi tanınmış kolo-nistlər daxil idi (ACDTA, fond 508, liste 1, dosya 393, v. 47). Zaqafqaziya diyar üzümçülər və şərabçılar şurası Cənubi Qafqazda alman kolonistlərinin təsərrüfatlarının inkişaf səviyyəsinin qaldırılmasında, ölkə daxilində və xaricdə iqtisadi əlaqələrin yaradılmasında, ümumiyyətlə kolonistlərin iqtisadi mübarizəsinin təşkil olunmasında, onların iqtisadi maraqlarının müdafiə edilməsində mühüm rol oynamışdır.

Ölkədə sosial-iqtisadi vəziyyətin gərginləşdiyini nəzərə alaraq Müvəqqəti hökumət 1917-ci il 25 mart tarixli qərarında yerlərdə ərzaq komitələrinin yaradılması haqqında göstəriş verdi. Komitələrin əsas funksiyası sabit qiymət əsasında taxılın toplanması, bölgüsü və satışında dövlət inhisarını həyata keçirməkdən ibarət idi. 1917-ci il mayın 21-də Bakı Ərzaq Komitəsinə keçirilən seçkilər zamanı müsəlman bloku daha çox səs toplayaraq seçkilərdə lider mövqe tutdu (24 may 1917, «Kaspiy», s. 112).

Alman koloniyalarında yayın əvvəllərində ərzaq komitələri hələ yaradılmamışdı və bu səbəbdən əhaliyə ərzağın bölüşdürülməsində müəyyən problemlər ortaya çıxırdı. Cənubi Qafqazda ilk ərzaq komitəsi Yelenendorf koloniyasında, 10 avqust 1917-ci il tarixdə yaradıldı və bu komitəyə əsasən ermənilər seçildilər. Məsələ onda idi ki, bu dövrdə artıq Yelenendorf koloniyasında və onun ətrafında 3000-ə yaxın erməni qaçqını məskunlaşmışdı ki, onlar da komitələrə keçirilən seçkilərdə iştirak etmək hüququndan istifadə edirdilər (ACDTA, fond 508, liste 1, dosya 403, v. 1-5).

Sosial-iqtisadi vəziyyətin ağır olmasına baxmayaraq Qafqaz koloniyalarındakı yerli komitələr müharibədən əziyyət çəkmiş alman mənşəli qaçqınlara və alman mənşəli hərbi əsirlərə

yardım göstərirdilər. Sonuncuların sayı Şimali Qafqazda xüsusilə çox idi və onlardan müxtəlif təsərrüfat sahələrində istifadə olunurdu. Cənubi Qafqazda bu sarıdan Yelenendorf koloniyası aparıcı rol oynayırdı. Koloniyada «Müharibədən zərər çəkmiş qaçqın və sair alman milliyyətindən olan Rusiya vətəndaşlarına yardım cəmiyyəti» fəaliyyət göstərirdi. 09 iyul 1917-ci il tarixdə keçirilən növbəti iclasda Teodor Hummel cəmiyyətin sədri seçildi (ACDTA, fond 508, liste 1, dosya 395, v.1). Adı çəkilən cəmiyyətin xəzinəsinə kolonistlər tərəfindən pul vəsaiti daxil olurdu. Məsələn, pastor F.Enqelqartdan 1917-ci ilin mayında cəmiyyətin xəzinəsinə 2788 rubl 30 qəpik, Forer qardaşlarından – 500 rubl, adi kolonistlərdən 5978 rubl 20 qəpik daxil olmuşdu. 17 iyul 1917-ci il tarixdə cəmiyyətin xəzinəsində, ümumilikdə 14067 rubl 25 qəpik vəsait var idi ki, ondan 13681 rubl Moskvaya, Mərkəzi Komitənin hesabına köçürüldü (ACDTA, fond 508, liste 1, dosya 395, v. 2). 1917-ci ilin İkihakimiyyətlilik dövründə Cənubi Qafqazın ictimai-siyasi həyatında gərginlik var idi. Müvəqqəti hökumət almanlara qarşı diskriminasiya xarakterli qanunların icrasını dayandırsa da, başda V.İ.Lenin olmaqla bolşevik partiyasının Almaniya ilə gizli əməkdaşlığı fonunda dövrü mətbuat tərəfindən Rusiya almanlarının əsassız olaraq casusluqda ittiham edilməsi davam edirdi (18 may 1917, «Kaspiy», s.108). Hakimiyyətin qətiyyətsizliyi ucbatından müxtəlif yönümlü millətçi və terror təşkilatlar öz fəaliyyətini gücləndirmişdilər. Ölkədə hökm sürən sosial-iqtisadi, siyasi özbaşınalıq milli münasibətlərin də kəskinləşməsinə təsir göstərirdi. Ilk öncə regionda cəmləşən Osmanlı dövlətindən gəlmiş erməni əhalisinin yerli xalqlara qarşı təcavüzü artmışdı. Alman əhalisi də bu təcavüzkar hərəkətlərin hədəfinə çevrildi. Məsələn, 1917-ci il 11 aprel tarixdə koloniya komissarına ermənilərin Yelenendorfya hücumu haqqında məlumat çatdırıldı. Bu zaman koloniyada 2200 nəfər alman, 800 aysor mənşəli qaçqın yaşayırdı. Bundan savayı, koloniyada Qafqaz atlı diviziyasının atıcı alayı qərarlaşmışdı. Bu alayın əsgərlərinin yerli kolonistlərlə münasibətləri heç də birmənalı deyildi. Yerli sakinlər hərbçilərə hörmətlə yanaşsalar da, arxiv sənədlərindən görünür ki, adı çəkilən alayın əsgərləri kolonistlərin təsərrüffatlarına ziyan vurur, “koloniyada özlərini ədəbsiz aparırdılar” (ACDTA, fond 508, liste 1, dosya 377, v. 41, 53). Koloniya ətrafında yaşayan və hətta başqa yerlərdən gələn ermənilər hərbçilərlə kolonistlər arasındakı münasibətlərin korlanmasına çalışır, kolonistləri rusların düşməni kimi göstərməyə can atırdılar. Qafqaz atlı diviziyasının atıcı alayının əsgərləri arasında təbliğat aparan, “İran təbəəsi, Arşak Arutyunov “alman kolonistləri tatarlarla (azərbaycanlılarla -İ. A.) birləşmişlər və ruslara, ermənilərə qarşı fəaliyyət göstərirlər” deyə əsgərləri almanlara qarşı zor tətbiq etməyə çağırırdı (ACDTA, fond 508, liste 1, dosya 390, v.11).Koloniyada yerləşdirilən ordu hissələri ilə kolonistlər arasında münasibətlər getdikcə mürəkkəbləşirdi. Artıq mənəvi cəhətdən pozulmuş rus ordusunun əsgər və zabitləri kolonistlərə qarşı əxlaqsız hərəkət edir, onların təsərrüfatlarına ziyan vururdular. Yelenendorf sakinləri rəsmi orqanlardan Qafqaz Süvari diviziyasının atıcı alayının koloniyadan

uzaqlaşdırılmasını, onların cəbhəyə göndərilməsini xahiş edirdilər (ACDTA, fond 508, liste 1, dosya 337, v. 43).

**3.Rusiyada İkihakimiyyətliliyin sonu və muxtariyyət hərəkatının səngiməsi**

Rusiyada Fevral inqilabı nəticəsində İkihakimiyyətlilik yaranmışdı, yəni Müvəqqəti hökumətlə yanaşı, Fəhlə, kəndli, əsgər deputatları Soveti də hakimiyyətə malik idi. 1917-ci ilin iyulun 3-də Müvəqqəti hökumət silah gücünə Sovetləri hakimiyyətdən məhrum etdi, Sovetlər qanundan kənar elan edildi. Beləliklə, 1917-ci ilin martından iyulun 3-dək davam edən İkihakimiyyətliliyə son qoyuldu, Müvəqqəti hökumət təkbaşına Rusiyanı idarə etməyə başladı.

İkihakimiyyətliliyin ləğvindən sonrakı dövrdə alman koloniyaları ətrafında yaranan vəziyyəti geniş müzakirə etmək üçün 23 iyul 1917-ci il tarixdə Tiflisdə Qafqaz almanlarının Qafqaz diyar nümayəndələr qurultayı keçirildi (ACDTA, fond 508, liste 1, dosya 395, v. 3).Cənubi Qafqaz almanları üçün ən vacib məsələlərdən biri qarşıdan gələn Müəssislər Məclisinə seçkilərdə iştirak məsələsi idi. Alman komitələri çalışırdılar ki, gələcək Müəssislər Məclisində almanların proporsional şəkildə təmsil olunmasına nail olsunlar. Ümumrusiya alman milli muxtariyyət hərəkatında baş verən parçalanma hallarını və bu parçalanmanın əsasən siyasi motivlərə görə baş verməsini nəzərə alaraq, Qafqaz alman komitələri elliklə "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya ittifaqına daxil olmaq haqqında qərar verdilər (ACDTA, fond 508, liste 1, dosya 395, v. 3).

1917-ci ilin yayında Cənubi Qafqazda qanunsuz erməni silahlı dəstələrinin sayı durmadan artırdı. Onların silahla təchizatında dövlət orqanlarında çalışan erməni mənşəli məmurlar da müəyyən rol oynayırdılar (ACDTA, fond 508, liste 1, dosya 398, v.2).Müxtəlif silahlı quldur dəstələrinin azğınlığı Rusiyada 1917-ci ilin avqustunda başlayan növbəti hakimiyyət böhranı zamanı daha da artdı. Alman kolonistlərinin təsərrüfatlarına basqınlar edilir, onların torpaqlarının və sair əmlaklarının ələ keçirilməsinə cəhdlər olunurdu (ACDTA, fond 508, liste 1, dosya 403, v.23). Kornilovçuluq dövründə Rusiyada iqtisadi – siyasi xaosun, özbaşınalığın daha da artması Qafqaz almanları qarşısında şəxsi və ictimai təhlükəsizliyi təmin etmək məqsədi ilə silahlı özünü-mühafizə dəstələrinin yaradılması zərurəti yaratdı. Qeyd edək ki, bu cür mühafizə dəstələrinin yaradılması hələ 27 aprel 1917-ci il tarixdə Zaqafqaziya Xüsusi Komitəsinin "Zaqafqaziya hüdud-larında yerli hakimiyyət orqanlarının yenidən təşkili haqqında" qərarında nəzərdə tutulmuşdu (ACDTA, fond 508, liste 1, dosya 398, v. 15).

10-12 avqust 1917-ci il tarixdə Moskvada Rusiya almanlarının II qurultayı keçirildi və bu qurultayda, həmçinin Qafqaz almanlarının və mennonitlərin nümayəndələri iştirak edirdilər. Cənubi Rusiya almanlarının nümayəndələri ilə mövcud olan müəyyən fikir ayrılığına baxmayaraq,

Rusiya almanlarını təmsil edən bütün qruplar, o cümlədən Qafqaz almanları və mennonitləri təsərrüfat və mədəni sahədə milli muxtariyyət prinsipini müdafiə etdilər (Fleischhauer, 2005, s. 546-549). Bu isə Birinci Dünya müharibəsi illərində müsadirə olunmuş alman torpaqlarının və sair təsərrüfat obyektlərinin, müəssisələrin sahiblərinə qaytarılması, alman təsərrüfatlarının azad inkişafını təmin edən hüquqi bazanın yaradılması, mədəni sahədə alman dilindən istifadəyə azadlıq verilməsi, alman təhsil sisteminin bərqərar olmasına, məktəblərdə tədrisin alman dilində aparılması demək idi.

Rusiyada yaranan siyasi durumla bağlı Moskva qurultayının yerlərdə alman əhalisinin mühafizə dəstələrinin yaradılması qərarına uyğun olaraq 1917-ci il avqustun ikinci yarısında Qafqaz koloniyalarında da yerli özünümüdafiə dəstələrinin yaradılması prosesi başladı. Bu iş Cənubi Qafqazda daha mütəşəkkil gedirdi. Qeyd etməliyik ki, Müvəqqəti hökumət almanların bu tədbirinə bir qədər laqeyd yanaşırdı. Bunun səbəbidir ki, alman özünümüdafiə dəstələrinin yaradılması, rəsmi status alması, silahlandırılması prosesləri bəzən bir neçə ay davam etirdi. Məsələn, Cənubi Qafqazın ən apaıcı koloniyası – Yelenendorfda hələ 10 avqust 1917-ci il tarixli iclasda "inqilabi işə sadiq şəxslərdən ibarət xalq milisinin yaradılması haqqında qərar qəbul edildi. Sənəddə göstərilirdi ki, "xalq milisinin yaradılmasının əsas məqsədi kolonistlərin şəxsi və əmlak təhlükəsizliyini təmin etməkdir" (ACDTA, fond 508, liste 1, dosya 403, v. 13). Sənəd qəbul edildikdən sonra onu real şəkildə həyata keçirmək kadr çatışmazlığı ucbatından çətinliklə üzləşdi. Bu məsələni həll etmək üçün kolonistlərin orduda xidmət edən həmyerlilərindən 30 nəfərinin hərbi xidmətdən təxris olunaraq yeni yaradılan xalq milisinə göndərilməsi xahişləri də bir nəticə vermədi (ACDTA, fond 508, liste 1, dosya 403, v.13). Bu səbəbdən Yelenendorf kolonistləri 24 avqust 1917-ci il tarixdə növbəti iclas keçirərək «öz hesablarına xalq milisi təsis etmək» və kolonistlərlərdən 14 nəfərin milisioner vəzifəsinə təyin olunması haqqında qətnamə qəbul etdilər. 24 avqust 1917-ci il tarixli iclasda adı çəkilən koloniya cəmiyyəti yuxarı dövlət instansiyalarına müraciət edərək xalq milisinə namizədlərin təsdiqlənməsini xahiş etdi (ACDTA, fond 508, liste 1, dosya 403, v.11). 17 oktyabr 1917-ci il tarixdə Yelenendorf koloniya iclasında təsdiq olunan və Zaqafqaziya Xüsusi Komitəsinə göndərilən xahişnamədə Yelenendorf milis mühafizə dəstəsi üçün lazımi sayda silah ayrılması xahiş olunurdu (ACDTA, fond 508, liste 1, dosya 401, v. 2). Gördüyümüz kimi, 1917-ci ilin oktyabrın ortalarına, yəni son günlərinə qədər Müvəqqəti hökumət təkcə Qafqazda deyil, həmçinin bütün Rusiya miqyasında almanların tələsik olaraq yaratdıqları yerli və dairə komitələrini, onların öz təşəbbüsləri ilə yaratdıqları hərbi birləşmələri tanımamışdır (Fleischhauer, 2005, s. 544). Artıq Müvəqqəti hökumət devrildikdən sonra, 1917-ci il 16 dekabr tarixdə Yelenendorf kolonistlərinin ümumi yığıncağında "koloniyanı müdaxilələrdən qorumaq məqsədi ilə hərbi mühafizə dəstələrinin yaradılması haqqında" qərarın qəbul edilməsi və mühafizə

dəstələrinin üzvlərinin siyahısının tərtib edilməsi yuxarıda göstərilənləri bir daha təsdiqləyir (ACDTA, fond 508, liste 1, dosya 408, v. 20-21). Qafqaz almanlarının milli muxtariyyət hərəkatında irəli sürülən tələblərdən biri də məktəblərdə tədrisin alman dilində aparılması idi. 1917-ci ilin sentyabrında Zaqafqaziya Xüsusi Komitəsi "Tədris müəssisələrinin milliləşdirilməsi haqqında Əsasnamə" qəbul etdi. Tədris dairə komissarları bu qərarın həyata keçirilməsini təmin etmək üçün sirkulyar sərəncamlar verdilər. Zaqafqaziya Xüsusi Komitəsinin sədr əvəzləyicisi Q. Şaxtaxtinski 14 oktyabr 1917-ci il tarixli sərəncamında İcraiyyə Komitələrindən "bu Əsasnamənin həyata keçirilməsi üçün hansı işlərin görüldüyü haqqında" məlumat verilməsini tələb edirdi (ACDTA, fond 508, liste 1, dosya 403, v. 21). Müvəqqəti hökumət dövründə Qafqaz almanlarının mədəni həyatında müəyyən canlanma müşahidə olunurdu. Koloniyalarda mövcud olan 2 sinifli ibtidai alman məktəblərində tədris, əsasən ana dilində aparılırdı. Bir çox koloniyalarda realni məktəbləri fəaliyyətə başlamışdı. Bu məktəblərdə kolonist uşaqları o dövrün qabaqcıl alman maarifçilərindən dərs alırdılar (ACDTA, fond 508, liste 1, dosya 388, v. 47-56). Rusiya almanlarının milli muxtariyyət hərəkatının təsiri ilə müxtəlif protestant dini cərəyanları arasında ixtilaflar nisbətən səngidi. 1917-ci il 18 oktyabr tarixdə bütün dünya lüteranları tərəfindən təntənəli şəkildə Reformasiya hərəkatının 400-illik yubileyinin qeyd edilməsi Qafqaz almanlarının dini konsolidasiyasında mühüm rol oynamalı idi. Lakin bir həftə sonra – 25 oktyabr 1917-ci il tarixdə Petroqradda baş verən dövlət çevrilişi və bolşeviklərin hakimiyyəti zorla ələ alması Rusiyada yeni siyasi xaosun başlanğıcını qoydu.

### 4.Alman milli hərəkatı Oktyabr çevrilişindən sonrakı dövrdə

Sovet hakimiyyətinin ilk illəri Qafqaz almanları tərəfindən birmənalı qarşılanmadı. Əgər "Torpaq haqqında" dekretin elan olunması kolonistlərin narahat-lığına səbəb oldusa, "Rusiyada yaşayan xalqların hüquqları haqqında Bəyannamə" almanlarda özünüidarə sisteminin yaradılmasına müəyyən ümidlər doğurdu. Bu özünüidarə sistemi əvvəlki, yəni çarizm və Müvəqqəti hökumət dövrlərinə nisbətən daha radikal formada, hətta milli - ərazi muxtariyyəti formasında belə təsəvvür olunurdu. Belə bir şəraitdə Rusiya almanları arasında sosial - siyasi parçalanma daha da gücləndi, sosialist qrupların, əsasən də bolşevik platformasında dayanan qrupların mövqeyi və təsiri gücləndi. Alman əhalisi arasında ideoloji parçalanma Cənubi Qafqaza nisbətən Şimali Qafqazda daha qabarıq nəzərə çarpırdı və bu Şimali Qafqaza qonşu Volqaboyu regionunda bolşevizm platformasında dayanan "Volqaboyu Alman Sosialist İttifaqı"nın fəaliyyətinin aktivləşməsi ilə izah edilirdi.

1917-ci ilin noyabr-dekabr aylarında Şimali Qafqazın şəhər və kəndlərində tədricən Sovet hakimiyyəti bərqərar oldu. 1918-ci il 08 yanvar tarixdə Qanunverici Rada Yekaterinodarda (indiki

Krasnodar- İ. A.) Kuban vilayətini Kuban Respublikası elan etdi. Həmin ilin 17 yanvar tarixində Krımskaya stanitsasında bolşeviklər Kuban Vilayət Hərbi – İnqilab Komitəsi yaratdılar. 18 fevral 1918-ci il tarixdə Armavirdə Kuban vilayəti sovetlərinin I qurultayında bütün Kuban ərazisində Sovet hakimiyyəti elan olundu (İstoriya Kubani v datakh, 1996, s. 27). 1918-ci ilin mart-aprel aylarında bolşeviklər Kubanda və bütün Qara dənizin şərq sahili ərazilərində öz hakimiyyətlərini bərpa etdilər. Mürəkkəb siyasi şəraitdə Şimali Qafqazın alman əhalisindən öz mövqeyini təyin etmək tələb olunurdu. Şimali Qafqazda qalan alman əhalisinin əksəriyyəti, əsasən də mennonitlər öz dini təlimlərinə riayət edərək dövlət orqanlarından təcrid olunmağa çalışır, ölkədə başlayan Vətəndaş müharibəsində neytral mövqedə durmağı üstün tuturdular. 1918-1920-ci illərdə hakimiyyətin tez-tez əldən-ələ keçdiyi bir dövrdə alman əhalisi hakimiyyət orqanlarına qarşı itaətsizlik göstərməmiş, kütləvi şəkildə mübarizə aparan tərəflərin silahlı dəstələrində hərbi əməliyyatlarda iştirak etməmişlər. Arxiv mənbələrində yalnız bəzi koloniya sakinlərinin (Karras, Olqinskaya, Morqentau, Karlsfeld və s.) Ağ Ordunun və yaxud Qızıl Ordunun tərkibində döyüşdüyü barədə fraqmentar məlumatlar var (Tsentr dokumentatsii noveyshey istorii Stavropol'skogo kraya, fond 1, opis.85, delo13).

1917-ci il Oktyabr çevrilişindən sonra Cənubi Qafqazda da siyasi mübarizə yeni mərhələyə qədəm qoydu. Bolşeviklər 2 noyabr 1917-ci il tarixli iclasda Bakı Sovetini Bakı şəhərində yeganə ali hakimiyyət orqanı elan etdilər. Siyasi hegemonluğa nail olan bolşeviklər 22 noyabr 1917-ci il tarixdə, hələ Fevral inqilabından dərhal sonra yaranan İctimai Təşkilatların İcraiyyə Komitəsinin ləğvinə nail oldular.1917-ci ilin dekabrında mövcud seçki qayadalarının bolşeviklərin xeyrinə dəyişdirilməsi şəraitində keçirilən seçkilərdə şəhər Dumasında yerlərin çoxunu bolşeviklər tutdular (Popov, 1924, s. 108). Bolşeviklərin hakimiyyətini tanımaq istəməyən və Cənubi Qafqazı sovetləşmədən qorumağa çalışan siyasi partiyalar 1917-ci il noyabrın 11-də Tiflisdə Müşavirə keçirdilər və Rusiyadakı bolşevik hökumətini tanımaqdan imtina etdiklərini bildirərək “Müstəqil Zaqafqaziya hökuməti” yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də Cənubi Qafqaz Komissarlığı yaradıldı (Pobeda Sovetskoy vlasti v Zakavkazye, 1978, s. 207-208). 1917-ci ilin sonlarında Qafqazın siyasi həyatında baş verən ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilərin keçirilməsi oldu. Seçkilər 1917-ci il noyabrın 26-da baş tutdu. Seçkilər nəticəsində Zaqafqaziyada bolşeviklərin əlində olan Bakı şəhəri istisna olmaqla, yerlərdə milli partiyalar qələbə çaldılar. Yerlərdə milli şuralar və komitələr milli təfəkkürlü insanları öz ətrafında birləşdirərək hakimiyyəti ələ alırdılar. Cənubi Qafqazın bütün bölgələrində, o cümlədən almanların kompakt yaşadığı qəzalarda da İctimai Təhlükəsizlik Komitələri yaradılırdı. 26 dekabr 1917-ci il tarixdə Zaqafqaziya Komissarlığının Yelizavetpol İctimai Təşkilatları ilə birgə keçirdiyi müşavirədə Yelizavetpol Quberniya İctimai Təhlükəsizlik Komitəsi yaradıldı (ACDTA, fond 508,

liste 1, dosya 395, v.16-18). Ertəsi gün "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Ümumrusiya İttifaq"ının Yelizavetpol şöbəsinin yığıncağında Yelizavetpol Quberniya İctimai Təhlükəsizlik Komitəsinə "İttifaq"ın nümayəndəsi kimi Teodor Henrixoviç Hummel seçildi. Vilhelm Yakovleviç Qurr onun köməkçisi təyin olundu və zərurət yaranarsa, onu əvəz edə bilərdi (ACDTA, fond 508, liste 1, dosya 395, v. 17). 30 dekabr 1917-ci il tarixdə Yelizavetpol Quberniyası İctimai Təhlükəsizlik Komitəsi Tiflisə, Alman milli Komitəsinə göndərdiyi teleqramda Alman milli Komitəsindən xahiş edirdi ki, "quberniyada qayda-qanun və normal həyatın bərqərar edilməsi kimi çətin işdə onlardan öz köməyini əsirgəməsin" (ACDTA, fond 508, liste 1, dosya 403, v. 45). Yerlərdə yaradılan İctimai Təhlükəsizlik Komitələrinin əsas vəzifələrindən biri əhalini xaosdan və özbaşınalıqlardan qoruya biləcək milli hərbi hissələrin yardılması idi (ACDTA, fond 508, liste 1, dosya 395, v.1-9, 17-25).

1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Cənubi Qafqazda ictimai – siyasi vəziyyətin yenidən gərginləşməsi Zaqafqaziya Komissarlığından ordu quruculuğuna diqqətin artırılmasını tələb edirdi. Belə ki, Rusiyanın 1917-ci ilin dekabrın əvvəllərində Almaniya və onun müttəfiqləri ilə apardığı sülh danışıqları boşa çıxdıqdan sonra alman – türk qoşunları hücuma keçdilər. Belə bir şəraitdə Tiflisdə qərarlaşan "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Qafqaz İttifaqı" 04 yanvar 1918-ci il tarixdə alman koloniyalarının icraiyyə komitələrinə göndərdiyi sərəncamda 18-50 yaşlı şəxslərin "Alman atıcı alayının rezerv tağımına çağrılmasını" tələb edirdi (ACDTA, fond 508, liste 1, dosya 403, v. 39). Alman atıcı alayının yaradılmasında əsas məqsəd Qafqaz almanlarının maraqlarının müdafiə olunması idi və bu hərbi hissə Cənubi Qafqazda gedən millətlərarası münaqişələrə qarışmaq niyyətində deyildi.

1918-ci ilin yanvarında cəbhədən qayıdan keçmiş Rusiya hərbi hissələrinin əksəriyyəti Cənubi Qafqazda yerləşdirilirdi. "Alman milliyətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı" hərbçilərin koloniyalarda yerləşdirilməsini etirazla qarşılayırdı – almanların fikrincə, milli və sosial münasibətlərdə gərginliyin son həddə çatdığı bir dövrdə hərbçilərin koloniyalarda yerləşdirilməsi alman əhalisinə qarşı müəyyən təxribatların yaranması üçün şərait yarada bilərdi (ACDTA, fond 508, liste 1, dosya 395, v.18). Cəbhədən qayıdan və vətəndaş müharibəsinin başladığı Sovet Rusiyasına qayıtmaq istəməyən silahlı qüvvələr bütün region üçün baş ağrısına çevrilmişdi. Bu vacib məsələ ilə bağlı Tiflis və Yelizavetpol İctimai Təhlükəsizlik Komitələrinin nümüyəndələri bütün milli təşkilatlarla birgə 13-14 yanvar 1918-ci il tarixdə iclas keçirdilər (ACDTA, fond 508, liste 1, dosya 405, v. 1).

Beləliklə,Cənubi Qafqazda Ali hakimiyyət kimi tanınan İctimai Təhkükəsizlik Komitəsi əsasən rus və erməni mənşəli əsgərlərdən ibarət hərbi hissələrin xaotik şəkildə regiona qayıtmasını

nəzarətə almağa cəhd edirdi. Qeyd edək ki, ermənilərdən ibarət belə hərbi alaylardan biri Yelizavetpol qəza komissarının köməkçisi Ter-Asaturovun sərəncamı ilə Yelenendorf koloniyasında yerləşdirilmişdi. Kolonistlərin narazılığına baxmayaraq erməni hərbi birləşməsinin tam təminatı yerli almanların hesabına ödənilirdi (ACDTA, fond 508, liste 1, dosya 409, v.1-7). Erməni hərbi dəstəsinin koloniyada yerləşdirilməsi 1918-ci ilin fevralında koloniyada yaşayan və bura başqa yerlərdən gələn ermənilərin kolonistlərə silahlı hücumları, kolonistlərin qarət olunması üçün münbit şərait yaratdı. Erməni əsilli hərbçilərin və mülki şəxslərin azğınlığı haqqında Alman Milli Komitəsi dəfələrlə Erməni Mülki Komitəsinə öz narazılığını bildirmişdi (ACDTA, fond 508, liste 1, dosya 408, v. 7,8, 13, 15). Sovet Rusiyasının nümayəndələrinin qeyri-müəyyən mövqeyi nəticəsində Brest-Litovsk sülh danışıqlarının növbəti mərhələsi də 1918-ci il 10 fevral tarixdə uğursuzluqla başa çatdı və tezliklə həm Almaniya, həm də Türkiyə qoşunları bütün cəbhələrdə əks hücuma keçdilər.Eyni zamanda Zaqafqaziya Komissarlığı hərbi mükəlləfiyyət haqqında Dekret imzaladı (ACDTA, fond 508, liste 1, dosya 409, v. 1-7). 24 fevral 1918-ci il tarixdə Tiflisdə “Alman milliyyətindən olan Rusiya vətən-daşlarının Qafqaz ittifaqı” eyni xarakterli sərəncamla Gürcüstan və Azərbaycandakı alman koloniyalarına müraciət etdi. Sənəddə “1899, 1898, 1897-ci illərdə anadan olmuş gəncləri Rusiya alman atıcı alayının qərargahına göndərmək” tələb olunurdu (ACDTA, fond 508, liste 1, dosya 411, v.3).Koloniya rəhbərliyi çağırışçılardan yazılı zəmanət alırdı ki, onlar göstərilən müddətdə Tiflisə, Alman atıcı alayının qərargahına özlərini çatdıracaqlar (ACDTA, fond 508, liste 1, dosya 411, v.3). Arxiv sənədlərindən görünür ki, alman gəncləri Alman atıcı alayında xidmətə həvəslə yollanırdılar, belə ki, alay komandirinin Yelenendorf koloniyasının komissarına 17 fevral 1918-ci il tarixdə verdiyi vəsiqədən məlum olur ki, adı çəkilən koloniyanın 18-26 yaşlı gəncləri hələ həmin ilin 01 fevral tarixdən,yəni hərbi səfərbərlik elan edilməmişdən öncə könüllü olaraq adı çəkilən alaya xidmətə yazılmışdılar (ACDTA, fond 508, liste 1, dosya 411, v. 5). Qafqaz cəbhəsindəki erməni və gürcü milli hərbi birləşmələrinin Osmanlı qüvvələri tərəfindən darmadağın edilməsindən sonra Zaqafqaziya Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı və 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi (Zhvaniya, 1987, s. 200). Seym qarşısında duran əsas məsələlərdən biri Türkiyə ilə yaxınlaşan sülh danışıqları üçün hüquqi baza yaratmaq idi. Lakin Seym bu məsələ ilə bağlı ziddiyyətli qərarlar qəbul edirdi – bir tərəfdən, Zaqafqaziyanı müstəqil dövlət elan etməkdən imtina edən Seym, digər tərəfdən xarici ölkələrlə, o cümlədən “Üçlər İttifaqı”nın üzvləri ilə sülh bağlamaq səlahiyyəti olduğunu bildirirdi və Türkiyə ilə sülh danışıqları aparmaq üçün yaradılan siyasətçilər qrupu martın 12-də Trabzona gəlmişdi (Pipiya, 1971, s. 9).

1918-ci il martın 14-də Trabzonda başlayan sülh konfransında Türkiyə ilə Zaqafqaziya Seymi nümayəndələri arasında razılıq əldə olunmadı. Seymin erməni və gürcü nümayəndələri Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür, 03 mart 1918-ci il Brest sülhünün şərtlərini tanımaqdan boyun qaçırır, Türkiyəyə qarşı hərbi əməliyyatlara hazırlaşırdı. 1918-ci ilin martında Cənubi Qafqazda siyasi gərginlik son həddə çatmışdı.

Belə bir mürəkkəb şəraitdə Qafqaz almanları qarşısında duran problemlərə aydınlıq gətirmək üçün "Alman milliyyətindən olan Rusiya vətəndaşlarının Qafqaz ittifaqı"nın növbəti nümayəndələr qurultayının keçirilməsinə zərurət yarandı və bu məqsədlə alman koloniyalarının icraiyyə komitələrinə dəvətnamələr göndərildi (ACDTA, fond 508, liste 1, dosya 395, v.10). Mərkəzi Alman komitəsinin fövqəladə nümayəndələr qurultayı 14 mart 1918-ci il tarixdə Tiflisdə keçirildi (ACDTA, fond 508, liste 1, dosya 388, v.17). Qurultayda Zaqafqaziya alman icraiyyə komitələrinin Alman Milli Şurası adlandırılması haqqında qərar qəbul olundu. Bundan savayı, Şimali Qafqazda gedən hərbi əməliyyatlara, o cümlədən general Vrangelin komandanlıq etdiyi ordunun fəaliyyətinə münasibət bildirildi və Qafqazın alman əhalisinin bu orduya yardım məqsədi ilə alman milliyyətindən olan vətəndaşlardan ibarət alayın yaradılması, bu alayın Vranqel ordusuna daxil olması haqqında qərar qəbul olundu. Qurultayda alman gənclərinin hərbi xidmətə çağırışı qaydaları da müzakirə edildi (ACDTA, fond 508, liste 1, dosya 388, v.17-18). Orduda təlim-tərbiyə, nizam-intizamı sərtləşdirmək üçün 24 mart 1918-ci il tarixdə "Hərbi xidmət haqqında" qərar qəbul edildi (ACDTA, fond 508, liste 1, dosya 409, v. 1-7).

Trabzonda danışıqların kritik bir nöqtəyə çatdığı məqamda Qafqaz cəbhəsi qoşunlarının baş komandanı "Zaqafqaziyada hərbi mükəlləfiyyətlilərin qoşunlara çağrılması haqqında" qanuna əsasən bütün hərbi mükəlləfiyyətlilərin orduya səfərbər edilməsi haqqında sərəncam verdi (ACDTA, fond 508, liste 1, dosya 409, v.7). Sərəncama əsasən 01 yanvar 1869-cu ildən 01 yanvar 1899-cu illədək anadan olan vətəndaşlar 6 ay müddətinə hərbi xidmətə çağrılırdılar. Çağırışdan yalnız "vergi müfəttişləri, radio ixtisasçıları, torpaqölçənlər, aqrar işlər üçün lazımlı kadrlar, milis işçiləri, texniki nəzarət və poçt işçiləri azad olunurdular" (ACDTA, fond 508, liste 1, dosya 409, v. 7). Trabzonda Zaqafqaziya Seyminin erməni və gürcü mənşəli nümayəndələri Brest sülhünün şərtlərini tanımadıqlarını, Qarsdan, Ərdəhandan və Batumdan türk qoşunlarının çıxarılmasını tələb etdilər. Zaqafqaziya nümayəndələrinin uzun və nəticəsiz danışıqları türk ordusunu öz hücumlarını davam etdirməyə məcbur etdi.

Türk qoşunlarının Bakıya qədər irəliləməsi ehtimalından və bunun fonunda Bakıda müsəlman-türk əhalisinin, "Müsavat" partiyasının siyasi fəallığının artacağından təşvişə düşən Bakı Soveti, "Daşnaksutyun" partiyası və Erməni Milli Şurası artıq 1918-ci ilin martın ortalarından

Azərbaycan Milli hərəkatına divan tutmaq, şəhərdə milli qırğın törətmək və Bakını türk-müsəlman əhalidən təmizləmək planları qururdu. "Əksinqilaba qarşı mübarizə" şüarı altında erməni daşnakları Bakı və ətraf qəzalarda yaşayan rus, alman, aysor və sair qeyri-müsəlman əhalini də bu qırğına cəlb etmək niyyəti ilə onlar arasında təxribat xarakterli təbliğat aparırdılar. 1918-ci ilin martın 30-da ermənilər tərəfindən azərbaycanlılara qarşı başlayan soyqırım qəzalarda aprel-may aylarında da davam etmişdir. Arxiv sənədlərindən görünür ki, Cənubi Qafqaz almanları regionda 1918-ci il yaz aylarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım aktlarında neytral mövqe tutmuş, bəzi hallarda isə azərbaycanlı sakinləri ermənilərdən müdafiə etmişlər (ACDTA, fond 508, liste 1, dosya 408, v. 10).

1918-ci ilin baharında ermənilərin alman kolonistlərinə də qarşı təxribat xarakterli hərəkətləri davam edirdi. Bəzən alman kolonistlərinin mühafizə dəstəsi erməni quldurlarına qarşı güc tətbiq etməli olurdular. 1918-ci ilin aprelin əvvəllərindən Murut, Azat və Çaykənddə məskunlaşan ermənilər "şüurlu şəkildə və sistematik olaraq" alman kolonist təsərrüfatlarına ziyan vurmaqda davam edirdilər (ACDTA, fond 508, liste 1, dosya 77). Erməni Mülki Komitəsi millətçi-daşnak dəstələrinin cinayətkar fəaliyyətini dəstəkləyir, koloniya rəhbərlərindən erməni silahlılarından "müsadirə olunmuş silahların və sair əşyaların Erməni Mülki Komitəsinə təhvil verilməsini tələb edirdi" (ACDTA, fond 508, liste 1, dosya 408, v. 26-27).

Silahlı erməni dəstələrinin alman kolonistlərinə basqınları 1918-ci ilin may – iyun aylarında da davam etmişdi (ACDTA, fond 508, liste 1, dosya 408). Ermənilərin məqsədi almanları öz yaşadıqları yerlərdən qovmaq, onların torpaqlarını, evlərini və sair əmlaklarını ələ keçirməkdən ibarət idi. Qeyd edək ki, Yelizavetpol quberniyasının qərb qəzalarında Türkiyədən və İrandan gəlmiş minlərlə erməni qaçqını məskunlaşmışdı və onlar alman koloniyalarına basqınlarda fəal iştirak edirdilər. Bu dramatik hadisələr fonunda Cənubi Qafqaz alman koloniyalarında müsbət dəyişikliklərə böyük ümidlər bəslənilirdi. Belə ki, 08 may 1918-ci il tarixdə Zaqafqaziya Federasiyasının hökumətinin qərarı ilə çar Rusiyası dövründə adları ruslaşdırılmış koloniyalara öz tarixi adları qaytarıldı. Koloniyalarda yenə kargü- zarlıq işlərinin həm rus, həm də alman dilində aparılmasına icazə verildi (Gumbatova, 2005, s. 168). Qafqaz almanlarında gələcəyə ümid yaradan başqa bir amil beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı idi: Batumda sülh danışıqları zamanı Almaniya nümayəndələri Zaqafqaziya nümayəndəliyinin gürcü üzvləri ilə separat danışıqlar apararaq onlara bildirdilər ki, Federasiya tezliklə dağılacaq və gürcülər kömək üçün Almaniyaya müraciət etməlidirlər. 14 may 1918-ci il tarixdə Gürcü Milli Şurası Almaniyanın himayədarlığını qəbul etmək haqqında qərar qəbul etdi (Pipiya, 1978, s.103). Gürcüstan Milli Şurasının xahişnaməsi Almaniya nümayəndə heyətinin rəhbəri general fon Lossova təqdim edildikdən dərhal sonra gizli şəkildə "gələcək müstəqil Gürcüstanla" Almaniya arasında bağlanacaq müqavilənin maddələrinin

hazırlanması prosesi başladı. Eyni zamanda Batuma, Potiyə, Oçamçirə Ukraynada yerləşən Almaniya hərbi hissələrindən 3 minlik hərbi kontingent göndərildi. Beləliklə, Almaniya üçün Cənubi Qafqaza yol açıldı. Bu dövrdən başlayaraq həm Gürcüstanda, həm də Azərbaycanda məskunlaşan alman kolonistlərinin tarixində məzmunca yeni səhifə açıldı.

**Nəticə**

Beləliklə, Qafqaz almanlarının 1917-ci ilin Fevral inqilabından 1918-ci il mayın sonuna qədərki dövrdə sosial, ictimai-siyasi həyatını nəzərdən keçirdikdən sonra aşağıdakı nətacəyə gələ bilərik: Rusiyada yaşayan bütün xalqlar kimi almanlar Fevral inqilabını, Romanovlar monarxiyasının devrilməsini böyük sevinclə və gələcəyə böyük ümidlə qarşıladılar. Rusiya almanları ölkədə demokratik respublikanın qurulmasına, onlara qarşı çar hökuməti tərəfindən törədilən diskriminasiya xarakterli siyasətə son qoyulacağına ümid bəsləyirdilər. Qafqazda fəaliyyət göstərən müxtəlif siyasi cərəyanlarla, partiyalarla, sosial təbəqələrlə "bütün demokratiyanın vəhdəti" şüarı altında birləşən alman əhalisi, eyni zamanda öz milli maraqları, milli hüquqları uğrunda siyasi fəaliyyətə qoşulmuşdu. Bu fəaliyyətin nəticələrinə Rusiyanın müxtəlif regionlarında yaşayan alman əhalisinin maraqlarının müxtəlifliyi əhəmiyyətli təsir göstərirdi. Cənubi Ukraynada, Volqaboyuda, Sibirdə olduğu kimi Qafqazda da yaşayan alman əhalisinin sosial-iqtisadi, mədəni, siyasi, dini maraqları bəzi məqamlarda bir-birinə ziddiyyət təşkil edirdi. Rusiyanın gələcək siyasi quruluşu, milli muxtariyyətin hansı formada qəbul edilməsi, alman əhalisinin ölkənin siyasi həyatında iştirakı və sair məsələlərdə Rusiya almanlarının platforması üst-üstə düşmürdü və bu işdə onların müxtəlif konfessiyalara mənsubluğu da az rol oynamamışdır.

Yeni siyasi şəraitdə, İkihakimiyyətlilik dövründə Qafqaz almanları öz məqsəd və arzularını müəyyənləşdirmək üçün Tiflisdə bir neçə nümayəndələr qurultayı keçirməklə yanaşı, Rusiyanın başqa regionlarında keçirilən alman əhalisinin siyasi tədbirlərində də iştirak edir, Ümumrusiya almanlarının maraqlarını əks etdirən platformadan çıxış edir, hər hansı bir ərazi muxtariyyətinə və yaxud separatizmə yönələn fəaliyyəti pisləyir, yəni vahid Rusiya platformasını müdafiə edirdilər. Bu da təbiidir. Dispers şəkildə məskunlaşan və ənənəvi olaraq monarxiya tərəfdarları kimi tanınan almanlar yaranmış siyasi reallığı nəzərə alaraq, Rusiyanın gələcək siyasi quruluşunu vahid respublika kimi görürdülər. 1917-ci ilin birinci yarısında ümumi demokratikləşmə dövründə Qafqaz almanları bir sıra siyasi forumlar keçirdilər. Bu forumlarda kolonistlərin ictimai-siyasi, mədəni həyatına aid çox vacib qərarlar qəbul edildi. Lakin Müvəqqəti hökumət dövründə davam edən siyasi, sosial-iqtisadi böhran şəraitində bu qərarların böyük əksəriyyətini həyata keçirmək mümkün olmadı. Alman kolonistlərinin öz təşəbbüsləri ilə həyata keçirmək istədikləri tədbirlər Müvəqqəti hökumət tərəfindən dəstəklənmədi. Coğrafi xüsusiyyətləri və konfessional

mənsubiyyətinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən Şimali və Cənubi Qafqaz alman əhalisinin siyasi platformasında müəyyən fərqlər nəzərə çarpırdı. Cənubi Qafqaz almanları monolit kütlə kimi çıxış etsə də, Şimali Qafqaz alman əhalisi dispers cöğrafi məskunlaşma səbəbindən, ən əsası isə bir-birinə zidd dini icmalardan ibarət olduğuna görə parçalanmaya daha çox məruz qalırdı. Bu fərqlilik 1917-ci il oktyabr çevrilişindən və Rusiya imperiyasının böyük bir hissəsində Sovet hakimiyyətinin elan olunmasından sonra daha da artdı. Cənubi Qafqazda yalnız Bakıda Sovet hakimiyyəti elan olunsa da, Şimali Qafqazda 1917-ci ilin oktyabrından 1918-ci ilin mayınadək siyasi hakimiyyət dəfələrlə əldən-ələ keçmişdi. Ağqvardiyaçılarla bolşeviklər arasında gedən sinfi mübarizədə Şimali Qafqaz almanları neytral mövqe tutmağa çalışırdılar, baxmayaraq ki, onların böyük əksəriyyəti bolşeviklərin milliləşdirmə siyasətini bəyənmirdi. Bu səbəbdən ayrı-ayrı kolonistlərin fərdi şəkildə ağqvardiyaçı hərbi dəstələrdə iştirakı faktına rast gəlinir. 1918-ci ilin martında Sovet Rusiyası ilə Almaniya və onun müttəfiqləri arasında bağlanan Brest-Litovsk sülh müqaviləsi Şimali Qafqaz almanlarının bolşevik hökumətinə münasibətinin dəyişməsinə böyük təsir göstərdi. Şimali Qafqazda cəmləşmiş on minlərlə hərbi əsirlər və çoxsaylı kolonist kütlələrinin gələcək həyat perspektivlərinə müəyyən aydınlıq gətirildi.

Cənubi Qafqaz almanları Şimali Qafqazdakı soydaşlarından fərqli olaraq kəskin sinfi mübarizə şəraitində deyil, milli münaqişələrin son həddə çatdığı bir şəraitdə yaşayırdılar. Regionun ictimai-siyasi həyatını mürəkkəbləşdirən erməni millətçi partiyalarının, onların hərbi dəstələrinin təcavüzündən azərbaycanlılar, gürcülər və sair yerli xalqlarla yanaşı alman kolonistləri də əziyyət çəkirdilər.

Brest-Litovsk sülhündən sonra Almaniyanın Cənubi Qafqazda fəallığının artması üçün münbit şərait yarandı. 1918-ci ilin aprel-may aylarında Almaniya Cənubi Qafqazda həm siyasi, həm hərbi mövcudluğunu təmin etmək üçün əlverişli imkan qazanmışdı.1918-ci ilin baharında Cənubi Qafqazda müstəqil respublikaların yaranması, Şimali Qafqazda Sovet hakimiyyətinin devrilməsi və ağqvardiyaçı qüvvələrin birləşməsi, Qafqaz regionunda Almaniya amilinin real bir qüvvə kimi ortaya çıxması Qafqaz almanlarının siyasi fəallığını artırdı, onların ictimai-siyasi həyatında təntənə dövrü başladı.

## Kaynaklar

Azerbaycan Cumhuriyyeti Devlet Tarih Arşivi, (kısaca-ACDTA) fond 408, liste 1, dosya 77.

ACDTA, fond 508, liste1, dosya 337.

ACDTA , fond 508, liste1, dosya 361.

ACDTA, fond 508, liste1, dosya 377.

ACDTA, fond 508, liste1, dosya 388.

ACDTA, fond 508, liste1, dosya 390.

ACDTA, fond 508, liste1, dosya 393.

ACDTA, fond 508, liste1, dosya 395.

ACDTA, fond 508, liste1, dosya 398.

ACDTA, fond 508, liste1, dosya 401.

ACDTA, fond 508, liste1, dosya 403.

ACDTA, fond 508, liste1, dosya 405.

ACDTA, fond 508, liste1, dosya 408.

ARDTA, fond 508, liste 1, dosya 409.

ACDTA, fond 508, liste 1, dosya 411.

Fleischhauer, İ. (1990). *Die Deutschen in der russischen Revolution.Die Deutschen in der UDSSR in Geschichte und Gegenwart.* Baden-baden. Nomos.

Fleischhauer, İ. (2005). Di*e Deutschen in Zarenreich. Zwei Zahrhunderte deutsch – russischer Kulturgemeinschaft.*Erfstadt. Area Verlag.

*Bolshaya sovetskaya entsiklopediya. Glav. red. S.I.Vavilov, T.4. Vtoroye izdaniye.* (1969). Moskva. Gosud. nauchn. izd-vo «Bol'shaya sovetskaya entsiklopediya».

*Bolshaya sovetskaya entsiklopediya. Glav.red. S.I. Vavilov, T.36. Vtoroye izdaniye*. (1976). Moskva. Gosud. nauchn. izd-vo «Bolshaya sovetskaya entsiklopediya».

Vashkau N. (1998). *Dukhovnaya kultura nemtsev Povolzh'ya: problemy shkoly i obrazovaniya, 1764-1941 gg.: Avtoreferat dis. na soisk.uchen.step.d-ra ist.nauk.* Saratov. İzdatelstvo "Volqo-qradskiy Qosudarstvenniy Universitet".

Gumbatova, T. (2005). *Zhizn' nemtsev-kolonistov za Kavkazom.* Gumbatova T. F.

Zhvaniya, G. (1987). *Velikiy Oktyabr' i pobeda Sovetskoy vlasti v Gruzii*. Tbilisi. Sabchota Sakartvelo.

*Istoriya Kubani v datakh. Krasnodar.* (1996). Krasnodar.İzdatelstvo Kubanskiy Qosudarstvenniy Universitet.

*Istoriya rossiyskikh nemtsev v dokumentakh. T.1, (1763-1992 gg.).* (1993). Izd-vo MIGP.

(13 may 1917). *Kaspiy,* s.104.

(17 may 1917). *Kaspiy,* s.107.

(18 may 1917). *Kaspiy,* s.108.

(19 may 1917). *Kaspiy,* s.109.

(24 may 1917). *Kaspiy,* s. 112.

Pipiya, G. V. (1971). Politika Germanii v Zakavkaz'ye v 1918 godu. Sbornik dokumentov. Tbilisi. Izd-vo Sabchato Sakartvelo.

Pipiya, G. (1978). *Germanskiy imperializm v Zakavkaz'ye v 1910-1918 gg.* Nauka.

Popov, A. (1924). Iz istorii revolyutsii v Vostochnom Zakavkaz'ye 1917-1918 gg. *Proletarskaya revolyutsiya,* 5.106-114.

*Pobeda Sovetskoy vlasti v Zakavkaz'ye.* (1978). Metsniyereba.

Chebotareva, V. (2003). *Narkomnats RSFSR: svet i teni natsional'noy politiki. 1917-1924 gg.* Obshchestv. akad. nauk. ross. Nemtsev.

*Tsentr dokumentatsii noveyshey istorii Stavropol'skogo kraya*. Fond 1, opis.85, delo13. Stavropol.